İranla “altılıq” ölkələri arasında növbəti məsələsində Cenevrədə əldə olunmuş razılaşmaya uyğun olaraq birgə fəaliyyət planı yanvarın 20-dən icraya yönələcək.

Bu barədə İran Xarici İşlər Nazirliyinin beynəlxalq və siyasi məsələlər idarəsinin müdiri Həmid Bəidinejad bildirib.

Onun sözlərinə görə, bununla bağlı tərəflər arasında ekspertlər səviyyəsində Cenevrədə keçirilmiş son növə müzakirələri zamanı razılığa gəlinib: “Bu tarix üst səviyyəli səlahiyyətlilər tərəfindən də təsdiqlənməlidir. Hər halda mütəxəssislər yanvarın 20-ni təklif ediblər. Ancaq bu tarixin daha sonraya da salınması mümkündür”.